12 NOYABR KONSTİTUSİYA GÜNÜDÜR

# Konstitusiya islahatları ölkəmizdə demokratikləşmə proseslərinin və inkişafın möhkəmləndirilməsinə xidmət edir

*Bu il Azərbaycan dövlətinin tarixində müstəsna əhəmiyyətli hadisənin - dövlət müstəqilliyinin bərpa edilməsinin iyirmi beşinci ildönümü geniş qeyd olunur. 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul edilməsi ilə ölkəmizin müstəqilliyi və suverenliyi beynəlxalq aləmə bəyan edildi və həmin gün çoxəsrlik dövlətçilik tariximizə dövlət müstəqilliyinin bərpası günü kimi daxil oldu.*

Ötən 25 ildə Azərbaycan çətin tarixi yol keçərək müstəqilliyini qoruyub saxlamağa və daha da möhkəmləndirməyə, dayanıqlı iqtisadiyyat formalaşdırmağa müvəffəq olmuş, tamamilə müstəqil daxili və xarici siyasət yeridərək regionun lider dövlətinə çevrilmişdir. Dövlət və cəmiyyət həyatının bütün sahələrini əhatə edən nailiyyətlər və uğurlar heç də asan əldə edilməmiş, xüsusilə müstəqilliyin ilk illəri xalqımız üçün çətin və məşəqqətli olmuşdur. Dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmiz hərbi təcavüz, iqtisadi tənəzzül və dərin siyasi böhranla qarşılaşdı. İlk illərdə ölkə rəhbərliyində xalqın mənafelərini və milli maraqları əks etdirən siyasi iradənin olmaması milli təhlükəsizliyi təhdid edən ciddi problemlərin həllini qeyri-mümkün etmişdi. Məhz belə bir tarixi məqamda, Azərbaycan dövlətçiliyi üçün taleyüklü bir zamanda ölkənin milli maraqlarını təmin edə biləcək ümummilli liderə, tarixi şəxsiyyətə olan ehtiyac özünü daha güclü büruzə verirdi. Şübhəsiz ki, irimiqyaslı siyasi dəyişikliklərin müşayiət olunduğu tarixi dövrlərdə xalqın mənafelərinə uyğun siyasi iradə nümayiş etdirmək iqtidarında olan güclü liderlərə ehtiyac daha ciddi hiss olunur.

Azərbaycan xalqının təkidli tələbi ilə ölkə rəhbərliyinə qayıdışından sonra ulu öndər Heydər Əliyev uzaqgörən və məqsədyönlü fəaliyyəti, qətiyyəti və siyasi bacarığı sayəsində xalqımızı azərbaycançılıq ideyası ətrafında birləşdirərək milli birliyi təmin etməyə, ölkədə hökm sürən ictimai-siyasi anarxiyanın və vətəndaş müharibəsi təhlükəsinin qarşısını almağa müvəffəq oldu. Ölkədə ictimai-siyasi sabitliyin təmin olunması ilə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, habelə genişmiqyaslı islahatların başlanılması üçün əlverişli zəmin yarandı.

Ölkəmizdə başlanılmış islahatlar fonunda ən mühüm hadisələrdən biri ulu öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi və gərgin əməyi nəticəsində hazırlanaraq 1995-ci ildə ümumxalq səsverməsi (referendum) yolu ilə müstəqil Azərbaycan dövlətinin Konstitusiyasının qəbul edilməsi oldu. Konstitusiyanın preambulasında qeyd edildiyi kimi, "Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq" bu ümummilli əhəmiyyətli sənədi qəbul etdi.

Yeni Konstitusiyanın hazırlanması və qəbulu ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz tarixi xidmətlərindən biridir. Konstitusiyanın qəbul edilməsi xalqımızın tarixi ənənələrinə uyğun olan və eyni zamanda ölkəmizdə müasir dünyanın tələblərinə cavab verən demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, siyasi sistemin və hüquq sisteminin inkişafı üçün möhkəm özülün yaradılması baxımından mühüm hadisə oldu.

Azərbaycanın qanunvericilik sisteminin əsasını təşkil edən, Azərbaycan Respublikasında ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olan Konstitusiya ölkədə siyasi sabitliyin, ictimai sülhün və milli barışığın qarantı kimi çıxış edir, hüquqi-siyasi münasibətlər sisteminə və hüquq düşüncəsinə əhəmiyyətli təsir göstərir. Konstitusiya dövlət quruluşunun əsaslarını, şəxsiyyət, cəmiyyət və dövlət arasındakı münasibətlərin hüquqi çərçivələrini, siyasi sistemin təşkili prinsiplərini, hakimiyyətlərin bölünməsini, hakimiyyət orqanlarının təşkilini, səlahiyyətlərini və fəaliyyət qaydalarını müəyyənləşdirir, insan hüquqları və azadlıqlarının təminatı ilə bağlı mühüm məsələləri tənzimləyir. Dövlət quruluşunun başlıca prinsiplərini müəyyən etməklə yanaşı, Konstitusiya həm də cəmiyyət həyatının müxtəlif sahələrinə dövlətin müdaxiləsinin meyarlarını və belə müdaxilənin yol verilə bilən hədlərini dəqiqləşdirir, bu sahədə dövlət siyasətinin ümumi istiqamətlərini müəyyən edir.

Ölkə Konstitusiyasının preambulasında Azərbaycan xalqının Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək kimi ülvi niyyətləri bəyan edilmişdir.

Konstitusiya Azərbaycanın konstitusiya quruluşunun vacib əsası kimi xalq hakimiyyətini bəyan edir, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi kimi Azərbaycan xalqını elan edir, sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etməyi Azərbaycan xalqının suveren hüququ kimi təsbit edir. Əsas Qanun Azərbaycan dövlətini demokratik, hüquqi, dünyəvi, unitar respublika elan edir, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsini dövlətin ali məqsədi kimi təsbit edir.

Konstitusiya quruluşunun xüsusiyyətlərindən biri kimi, iqtisadi fəaliyyət azadlığı, mülkiyyət növlərinin müxtəlifliyi və onların bərabər müdafiəsinə verilən təminat, hər bir şəxs üçün layiqli həyat şəraitinin və azad inkişafın təmin olunmasına istiqamətlənmiş sosial dövlət konsepsiyası ölkə Konstitusiyasında geniş əksini tapmışdır. Konstitusiya xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsini, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalmağı dövlətin üzərinə vəzifə olaraq qoyur. Əsas Qanunda qeyd edildiyi kimi, Azərbaycanda iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir, Azərbaycan dövləti bazar münasibətləri əsasında sosialyönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına yardım göstərir, xalqımızın tarixi, maddi və mənəvi irsini qoruyur.

Konstitusiyada insan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsinin, ölkə vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsinin Azərbaycan dövlətinin ali məqsədi kimi müəyyənləşdirilməsi, dövlətin üzərinə hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat vermək vəzifəsinin qoyulması müstəsna əhəmiyyət kəsb edir. Bu, o deməkdir ki, azad cəmiyyətin aparıcı qüvvəsi olan insan amili ölkə Konstitusiyasının diqqət mərkəzində durur.

İnsan hüquqları və azadlıqları ilə bağlı müasir tendensiyalar nəzərə alınaraq, Azərbaycan Respublikasının Konstitusiyasında insan və vətəndaş hüquqları və azadlıqları, habelə onların reallaşdırılması mexanizmləri geniş təsbit edilmişdir. Əsas Qanunun ən böyük fəsli olan üçüncü fəsli bütünlüklə əsas insan və vətəndaş hüquqları və azadlıqlarına həsr edilmiş, həmin fəsildə demokratik, hüquqi dövlətdə təmin edilməsi zəruri olan hüquqlar və azadlıqlar, onların reallaşdırılması mexanizmləri, habelə ayrı-ayrı hüquqların beynəlxalq standartlara müvafiq olaraq, qanuni məhdudlaşdırılmasının yol verilən hədləri nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının, onun bütün normalarının və müddəalarının özəyini məhz demokratik dəyərlərə əsaslanan hüquqi, sosial dövlət konsepsiyası, insan şəxsiyyətinə hörmət amili təşkil edir. Ölkə Konstitusiyası müstəqil dövlətimizin inkişafının əsas istiqamətlərini və prinsiplərini özündə ehtiva edən hüquqi sənəd kimi, Azərbaycan xalqının rifahına xidmət göstərən dövlət idarəetmə mexanizminin təməlinə çevrilmişdir. Konstitusiyanın qəbulundan sonra ölkəmizdə genişmiqyaslı qanunvericilik və məhkəmə-hüquq islahatları həyata keçirilmiş və təkmil qanunvericilik bazası formalaşdırılmışdır.

Məlum olduğu kimi, konstitusiyaların hüquqi əlamətlərindən biri onların stabilliyidir. Konstitusiyanın stabilliyi ölkədə qanunçuluğun, dövlət hakimiyyətinin təşkili və həyata keçirilməsinin, şəxs, dövlət və cəmiyyət arasındakı münasibətlərin əsas şərtlərindən biridir. Lakin Konstitusiyanın stabilliyi heç də onun tamamilə dəyişilməzliyi demək deyildir. Konstitusiyanın qəbulu zamanı onun tənzimetmə predmetini təşkil edən ictimai münasibətlər və bu münasibətlərin tərkib hissəsi olan hüquqi, siyasi, sosial və iqtisadi vəziyyət dəyişdikcə, ictimai münasibətlər inkişaf etdikcə konstitusiyaların da təkmilləşdirilməsi, onlara müəyyən əlavələrin və dəyişikliklərin edilməsi zərurəti yaranır.

Bu baxımdan ölkəmizdə demokratik dəyərlərin gücləndirilməsi, məhkəmə-hüquq islahatlarının həyata keçirilməsi, insan və vətəndaş hüquqlarının və azadlıqlarının qorunması, sosial dövlət ideyasının gücləndirilməsi zərurətindən irəli gələrək, 2002-ci il 24 avqust və 2009-cu il 18 mart tarixlərində keçirilmiş referendumlarda Konstitusiyanın mətninə əlavələr və dəyişikliklər edilmiş, Əsas Qanun mühüm əhəmiyyətə malik yeni müddəalarla zənginləşdirilmişdir.

2009-cu ildən keçən 7 il ərzində Azərbaycanın sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında genişmiqyaslı inkişaf özünü göstərir. Ölkə iqtisadiyyatı dinamik inkişaf edir, genişmiqyaslı infrastruktur və quruculuq layihələri həyata keçirilir, sosialyönümlü siyasət və əsaslı iqtisadi islahatlar konsepsiyası uğurla davam etdirilir. Bütün bu proseslər ölkəmizin siyasi idarəetmə sisteminin daha da müasirləşdirilməsini, iqtisadi idarəetmə mexanizmlərinin çevik fəaliyyətinin təmin edilməsini, vətəndaşların hüquqlarının daha təsirli müdafiə olunmasını və bu məqsədlə növbəti dəfə Konstitusiya islahatlarının aparılmasını zərurətə çevirmişdi.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 iyul tarixli sərəncamına əsasən, "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının layihəsi rəy verilməsi üçün Konstitusiya Məhkəməsinə təqdim edilmişdir. Konstitusiya Məhkəməsinin plenumu 2016-cı il 25 iyul tarixli qərarı ilə Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişikliklər edilməsi haqqında təkliflərinə aşağıdakı kimi rəy vermişdir: *"Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının layihəsində təklif olunan dəyişikliklər Azərbaycan Respublikası Konstitusiyasının 155-ci maddəsinin tələblərinə uyğundur".*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə 2016-cı il 26 sentyabr tarixində keçirilmiş ümumxalq səsverməsi (referendum) yolu ilə Konstitusiyanın mətninə əhəmiyyətli əlavələr və dəyişikliklər edilmişdir. Qeyd etmək yerinə düşər ki, referendum xalq hakimiyyətinin və xalqın iradəsinin bilavasitə təzahürü olmaqla, dövlət və hər bir vətəndaş üçün ən vacib məsələlərin ümumxalq səsverməsi yolu ilə həlli forması kimi demokratiyanın mühüm institutudur. Son referendumda əldə edilən nəticələr Azərbaycanda xalq-lider vəhdətinin daha bir bariz təzahürü oldu, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən, ölkəmizin dayanıqlı inkişafına və sosial rifahın təmin olunmasına yönələn siyasətin Azərbaycan xalqı tərəfindən birmənalı dəstəkləndiyini nümayiş etdirdi.

Konstitusiyaya dəyişikliklər müxtəlif sahələri əhatə etməklə ali dövlət hakimiyyəti, məhkəmə hakimiyyəti orqanlarının və bələdiyyələrin işinin təkmilləşdirilməsinə, insan hüquqları və azadlıqlarının daha səmərəli təmin olunmasına, hüquq və azadlıqların müdafiəsində dövlət və bələdiyyələrin məsuliyyətinin artırılmasına yönəlmişdir.

Konstitusiyaya dəyişikliklərin böyük bir qismi bilavasitə insan hüquq və azadlıqlarının qorunması ilə bağlıdır. Artıq qeyd edildiyi kimi, ölkə Konstitusiyasının ən geniş üçüncü fəsli əsas insan və vətəndaş hüquqları və azadlıqlarına həsr olunmuşdur. Cəmiyyət inkişaf etdikcə vətəndaşların ölkəmizin siyasi, iqtisadi və sosial həyatında iştirakı genişlənir və yeni məzmun qazanır. Konstitusiyada təsbit edilmiş hüquqlar və azadlıqlar və onların təminat mexanizmlərinin də zamanın tələblərinə uyğun təkmilləşdirilməsi labüd olur.

Bu mənada Konstitusiyanın 24-cü maddəsinə insan ləyaqətinin qorunması və ona hörmət edilməsi, hüquqlardan sui-istifadəyə yol verilməməsi prinsiplərinin əlavə edilməsi; 25-ci maddəsinə sağlamlıq imkanları məhdud olan şəxslərin hüquqlarının qorunması ilə bağlı müddəanın əlavə edilməsi; 32-ci maddəsində şəxsi toxunulmazlıq hüququ, yəni fərdi məlumatların qorunmasına etibarlı təminat yaradılması; 36-cı maddəsində əmək müqaviləsi əsasında işləyən şəxslərin hüquqlarının müdafiəsi məqsədilə lokautun qadağan edilməsi (qanunla müəyyən edilmiş hallar istisna olmaqla); 60-cı maddəsində hüquq və azadlıqların inzibati və məhkəmə təminatının gücləndirilməsi və digər mütərəqqi əlavə və dəyişikliklər xüsusilə qeyd olunmalıdır.

Dövlət orqanlarının vətəndaşlara, onların hüquqları və azadlıqlarının müdafiəsinə münasibətdə məsuliyyətinin artırılması, hüquq və azadlıqların məhdudlaşdırılmasının dövlət tərəfindən gözlənilən nəticəyə mütənasibliyi prinsipinin Konstitusiya normaları qismində təsbit edilməsi ölkəmizdə insan hüquqlarına və onların təmin olunmasına göstərilən yüksək diqqətin təzahürüdür.

Hüquq və azadlıqların məhkəmə təminatı ilə bağlı Konstitusiyanın 60-cı maddəsinin yeni redaksiyada verilməsi, hüquq və azadlıqların məhkəmə müdafiəsi ilə yanaşı, inzibati qaydada da müdafiəsinə təminat verilməsi, hər kəsin işinə qərəzsiz yanaşılması və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılması hüququnun, hər kəsin inzibati icraat və məhkəmə prosesində dinlənilmək hüququnun təsbit edilməsi olduqca mütərəqqi əlavələrdir. Bu, ölkəmizdə insan hüquqları və azadlıqlarının daha səmərəli və təsirli müdafiəsini, bütövlükdə məhkəmə hakimiyyətinin daha effektiv fəaliyyətini təmin edəcək, mümkün süründürməçilik hallarının qarşısını alacaq əhəmiyyətli Konstitusiya normalarından biridir.

Konstitusiyaya dəyişikliklərin bir qismi də iqtisadi hüquqlarla bağlıdır. Ötən illər ərzində Azərbaycan iqtisadi sahədə böyük nailiyyətlər əldə etmiş, keçid dövrünü uğurla başa vuraraq regionun dinamik inkişaf edən, lider dövlətinə çevrilmişdir. Ölkəmizdə güclü infrastruktur və inkişaf layihələri həyata keçirilir, paytaxtla yanaşı, regionların da sosial-iqtisadi tərəqqisi təmin edilir, əhalinin rifah halı günbəgün daha da yaxşılaşır. Ölkəmizin dayanıqlı inkişafı iqtisadi hüquqların yeni inkişaf tendensiyalarına uyğunlaşdırılmasını zəruri edir. Cəmiyyətdə sosial məsuliyyəti inkişaf etdirmək üçün mülkiyyət hüququ ilə bağlı sosial məsuliyyət ideyasının Konstitusiyaya daxil edilməsi, azad sahibkarlıq hüququ ilə bağlı təminatlar ölkəmizdə qeyri-neft sektorunun inkişafına, torpaqlardan səmərəli istifadə edilməsinə, azad sahibkarlığın inkişafına və ictimai rifahın daha güclü təmin olunmasına xidmət edəcək.

Əsas Qanuna edilmiş dəyişikliklərin bir qismi də dövlət idarəçiliyi sistemini daha da inkişaf etdirmək məqsədi daşıyır. Bu dəyişikliklər ölkə Konstitusiyasının preambulasında əksini tapan niyyətlərin və prinsiplərin həyata keçirilməsinə yönəlmişdir. Xüsusilə də, vitse-prezidentlik institutunun yaradılması Azərbaycanda dövlət idarəetməsi sahəsində yeni və olduqca vacib hadisədir. Bu institut ölkəmizin yeni inkişaf mərhələsinə qədəm qoyduğu və əsaslı iqtisadi islahatların aparıldığı müasir dövrdə idarəetmə sistemində səmərəliliyin artırılması, ölkəmiz qarşısında duran vəzifələrin reallaşdırılması baxımından əhəmiyyətli olacaqdır.

Seçkili orqanlarda iştirakla bağlı yaş məhdudiyyətlərinin aradan qaldırılması bilik və təcrübəsi ilə cəmiyyətdə tanınan gənclərin potensialından istifadə imkanlarını genişləndirmək zərurətindən irəli gəlir. Bu gün Azərbaycanda gənclərlə bağlı dövlət siyasəti uğurla aparılır, neft kapitalının insan kapitalına çevrilməsi istiqamətində məqsədyönlü tədbirlər görülür. Gənclərin potensialından səmərəli istifadə olunması dövrün aktual tələblərindən biridir. Bununla yanaşı, xüsusi qeyd olunmalıdır ki, gənclər dövlət sistemində çalışan müdrik, yüksək peşəkar keyfiyyətlərə malik mütəxəssislərlə yanaşı çalışaraq və onların zəngin təcrübəsindən yararlanaraq dövlətçiliyimizin qorunması və inkişafında öz səylərini əsirgəməməlidirlər.

Əminliklə deyə bilərik ki, Konstitusiyanın mətninə edilmiş bütün dəyişikliklər və əlavələr Azərbaycanda demokratik prinsip və dəyərlərin bərqərar olmasının, insana, onun hüquq və azadlıqlarının təminatına göstərilən yüksək diqqətin daha bir təzahürüdür. Konstitusiya islahatları ölkəmizdə demokratikləşmə proseslərinin genişləndirilməsi, insan hüquqlarının və azadlıqlarının daha səmərəli müdafiə edilməsi, cəmiyyətdə bərqərar olan sabitliyin və təhlükəsizliyin, yüksək templə gedən inkişafın möhkəmləndirilməsi məqsədlərinə xidmət edir. İnsan hüquq və azadlıqları ilə bağlı Əsas Qanuna edilmiş dəyişikliklər ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə, xüsusilə də "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının müddəalarında, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnda əksini tapan prinsiplərə tam uyğundur.

Məlum olduğu kimi, 21 il öncə ümumxalq səsvermə - referendum yolu ilə qəbul edilmiş Konstitusiyanın Azərbaycanın dövlət və hüquq sisteminə gətirdiyi mühüm yeniliklərdən biri ali konstitusiya ədalət mühakiməsini həyata keçirən orqanının yaradılması olmuşdur. Qeyd edilməlidir ki, konstitusiya nəzarəti institutu Konstitusiya ilə təsbit olunmuş norma və prinsiplərin qorunması, hakimiyyətin müxtəlif orqanları arasında müəyyən edilmiş səlahiyyət balansının təmin edilməsi, habelə konstitusiya hüquq və azadlıqlarının müdafiəsi məqsədi daşıyır və bütövlükdə cəmiyyətə və onun inkişafı prosesinə keyfiyyət baxımından əhəmiyyətli təsir göstərir.

Fəaliyyətə başladığı dövrdən bu günə qədər Konstitusiya Məhkəməsinin plenumu tərəfindən ümumilikdə 336 qərar və 75 qərardad qəbul edilmişdir. Həmin qərarlar və onlarda formalaşdırılmış hüquqi mövqelər Konstitusiyanın aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının qorunmasına və pozulmuş hüquqların bərpasına xidmət edir.

Konstitusiyaya əsasən, Konstitusiya Məhkəməsi məhkəmə hakimiyyətinin ayrılmaz hissəsi olaraq öz fəaliyyətini digər məhkəmələrlə sıx əməkdaşlıqda həyata keçirir. Məhkəmələr tərəfindən Konstitusiya Məhkəməsinə daxil olmuş müraciətlərdə hüquq tətbiqedici orqanlar üçün mühüm əhəmiyyət daşıyan məsələlərə toxunulur ki, onlara aydınlıq gətirilməsi, açıqlanması və yaxud rəsmi şərh edilməsi son nəticədə bir çox hallarda nəinki məhkəmələr üçün, eyni zamanda hüquq və mühafizə orqanlarının işi üçün praktiki əhəmiyyət daşıyır.

Konstitusiya Məhkəməsi həmçinin konstitusiya ədalət mühakiməsinin müasir tendensiyalarını davamlı olaraq izləyir və fəaliyyətində tətbiq edir. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlər, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququ və xarici konstitusiya nəzarəti orqanlarının məhkəmə təcrübəsi öyrənilir və Konstitusiya Məhkəməsinin qərarlarında onlara istinadlar edilir. Bu həm qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi kimi müvafiq beynəlxalq müqavilələrin tətbiq edilməsinin zəruriliyindən irəli gəlir, həm də məhkəmənin mövqeyinin daha da zənginləşdirilməsinə və düzgün əsaslandırılmasına xidmət edir.

Bu gün əminliklə deyə bilərik ki, Konstitusiya Məhkəməsi Azərbaycanda demokratik, hüquqi dövlətin ayrılmaz atributuna, Konstitusiyanın hüquqi müdafiəsi mexanizminin səmərəli elementinə çevrilmişdir. Öz fəaliyyəti və qəbul etdiyi qərarları ilə Konstitusiya Məhkəməsi Konstitusiyanın aliliyini təmin edir, insan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsində qanunvericilik və məhkəmə təcrübəsinin birliyini mühafizə edir və hüquq sisteminin inkişafına töhfələr verir. Bu isə bir daha göstərir ki, Konstitusiyanın aliliyinin təmin olunması hüquq və azadlıqların müdafiə olunması ilə ayrılmaz və sıx əlaqədədir.

Qeyd olunanlar bir daha göstərir ki, Azərbaycanın dövlət və cəmiyyət həyatının bütün sahələrini əhatə edən genişmiqyaslı islahatlar, tərəqqi və quruculuq prosesləri öz mənbəyini məhz Azərbaycan Respublikasının Konstitusiyasından götürmüş, Əsas Qanunda təsbit edilmiş prinsip və istiqamətlər ölkəmizdə siyasi, hüquqi, iqtisadi, sosial və digər sahələrdə davamlı inkişafın əldə olunmasına zəmin yaratmışdır.

**Fərhad ABDULLAYEV,**

***Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri***